# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsinə dair 2025-ci ilin III rübü üzrə aparılmış monitorinqin nəticəsi barədə

## A R A Y I Ş

***İcraçılar:***

*Auditin təşkili və hesabatlılıq*
*idarəsinin rəisi* *Vasif Cavadov*

*Haqsız rəqabətə qarşı mübarizə*
*idarəsinin rəisi* *Rövşən Cəfərli*

**BAKI - 2025**

**Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi üzrə aparılmış monitorinqin nəticəsinə dair**

**A R A Y I Ş**

Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 9.9-cu "Auditor xidməti bazarında qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi üzrə monitorinqin aparılması və nəticəsinə dair təkliflərin verilməsi" bəndinə uyğun olaraq, Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi və Haqsız rəqabətə qarşı mübarizə idarəsi tərəfindən auditor xidməti bazarında şəffaflıq və qanunçuluğun təmin edilməsi məqsədilə sosial şəbəkələrdə qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən şəxslərin aşkar edilməsi istiqamətində monitorinq aparmışdır. Monitorinqin məqsədi, müvafiq icazə olmadan auditor xidməti göstərən şəxslərin fəaliyyətini müəyyən etmək və bu fəaliyyəti dayandırmaqdır. Bu proses, bazarda ədalətli rəqabət mühitinin qorunmasına, müştəri hüquqlarının müdafiə olunmasına və audit xidmətlərinin keyfiyyətinin artırılmasına xidmət edir.

Monitorinq əsasən sosial şəbəkələrdə auditor xidməti təklif edən şirkətlərin fəaliyyətinə yönəlmişdir. Bu şirkətlər Auditorlar Palatası tərəfindən müvafiq icazə almadan auditor xidmətlərini təklif edərək bazarda rəqabət üstünlüyü əldə etməyə çalışmışdır.

Monitorinq aşağıda qeyd edilən əsas meyarlar üzrə aparılmışdır:

- auditor fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun olub-olmaması;
- qeyri-qanuni fəaliyyətin auditor xidməti bazarına təsiri.

Monitorinq zamanı 4 hüquqi şəxs ("Azər Audit Konsalting" MMC, "M Finance Azerbaijan" MMC, "Partnyor" MMC, "Paychi Group" MMC) tərəfindən sosial şəbəkələr vasitəsilə auditor xidməti göstərilməsi barədə reklam xarakterli məlumatların yerləşdirildiyi müəyyən edilmişdir. Aparılmış monitorinqin nəticəsi olaraq bu şirkətlərin Palata tərəfindən verilən müvafiq icazəyə malik olmadan auditor xidmətlərini təklif etdikləri aşkar edilmişdir. Onlar tərəfindən əsasən aşağıdakı qanun pozuntularına yol verilmişdir:

**1. İcazəsiz fəaliyyət:** Bu şirkətlər Auditorlar Palatası tərəfindən verilmiş rəsmi icazə olmadan auditor xidmətlərini təklif etmişlər.

**2. Reklam və elanların qanunsuz yayılması:** Sosial şəbəkələrdə qanunsuz olaraq auditor xidmətləri reklamı vermiş, müştəriləri aldatmışlar.

## Təkliflər

Aparılmış monitorinqin nəticəsinə dair aşağıdakıları təklif edirik:

- qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması məqsədilə auditor xidməti göstərən şəxslərin və təşkilatların fəaliyyətinə dair məlumatlılığın artırılması, həmçinin, auditorlar və sahibkarlar arasında qanunvericiliyin tələbləri barədə maarifləndirici seminarların, vebinarların və təlim proqramlarının təşkili;

- Adları yuxarıda qeyd olunan 4 hüquqi şəxsin fəaliyyət kodu barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə sorğunun göndərilməsi və cavabının alınması;

- 4 hüquqi şəxsin qanuni təmsilçilərinə Palata tərəfindən icazə almadan auditor fəaliyyəti ilə məşğul olmanın qeyri-qanuniliyi və auditor xidməti göstərmək üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada Palatadan xüsusi icazə almağın zəruriliyi barədə məktubun göndərilməsi.

Nəticə olaraq auditor xidməti bazarındakı qeyri-qanuni fəaliyyətlərin aşkar edilməsi və bu fəaliyyətlərə qarşı mübarizə auditor xidmətlərinin keyfiyyətini artıracaq, auditor təşkilatlarının və sərbəst auditorların hüquqları qorunacaqdır.

**Auditin təşkli və hesabatlılıq**
**idarəsinin rəisi** **Vasif Cavadov**